

# TARİXİN QAN YADDAŞI

## 20 Yanvar faciəsindən 28 il keçir









# Dəhşətli qırğına bir neçə gün qalırdı...

Bakıdakı 20 Yanvar qırğınlarına hələ bir neçə gün qalırdı. Şəhər narahat idi. BunUnla belə, üç-dörd gündən sonra nələr baş verəcəyini, necə böyük cinayətlər törədiləcəyini heç kəs ağlına gətirə bilməzdi.

Kim ağlına gətirərdi ki, dövlətin ordusunun "əl"i ilə dinc əhaliyə silah tuşlanacaq, əliyalın insanlara qarşı qırğın törədiləcək, qan töküləcək? Bununla da sakitləşməyib daşı-divarı dağıdacaq, dəmiri əzəcək, şüşələri sındıracaqlar?



Kim düşünə bilərdi ki, bəlkə də ən dəhşətli müharibələrdə belə edilməyən cinayətlərə rəvac veriləcək - məsum uşaqların həyatına son qoyacaq, köməksiz qocaları öldürəcəklər?

Təcili yardım maşınını güllələbaran etmək, həkimə, tibb bacısına atəş açmaq ağlasığan hadisə idimi? Axı bu, heç bir qanuna - istər hüquqi qüvvədə olan, istərsə də yazılmamış insanlıq qanunlarına sığışmayan hərəkətdir.

Sakinləri öz azadlığı, müstəqillik hüququ uğrunda mücadiləyə çıxan şəhərdə Azərbaycanın ovaxtkı başçılarından dəstək alan cəllad Qorbaçovun rəhbərlik etdiyi dövlətin "sülhsevər" ordusu bir neçə gündən sonra məhz bu cür ağlasığmaz yolla "sakitlik" yaratmaq qərarında idi.

Bəli, bir neçə gündən sonra Bakıda, eləcə də respublikanın bir sıra bölgələrində baş verəcək qanlı hadisələr dəhşətli idi.

*Fotolar* ***Fərman BAĞIROVUNDUR***

